# XXI əsr Yaponiya - ASEAN əməkdaşlığının əsas istiqamətləri

**Afaq Nərimanova**
*AMEA Şərqşünaslıq İnstitutunun kiçik elmi işçi*

Dünya tarixindən məlum olduğu kimi XX əsrin 50-60-cı illərində müstəmləkəçilik sisteminin dağılması prosesi Cənub-Şərqi Asiyada yaşayan xalqlara öz müstəqil dövlətlərini yaratmaq, milli iqtisadiyyatlarını inkişaf etdirməyə imkan yaratdı. Dünya siyasətində bitərəf mövqe tutan və ideoloji bloklaşmada iştirak etməkdən imtina edən bu dövlətlər 1967-ci il avqustun 8-də Tailandın paytaxtı Banqkok şəhərində öz aralarında Cənub-Şərqi Asiya dövlətləri Assosiasiyası (Association of Southeast Asian Nations) adlanan hökumətlərarası birlik yaratdılar. Birliyin 5 üzvü - İndoneziya, Malayziya, Sinqapur, Tailand, Filippin öz aralarında sərbəst ticarət münasibətləri sistemini yaradaraq inteqrasiyaya doğru ilk addım atdılar. 1984-cü ildə bu təşkilata Bruney sultanlığı, sosializm düşərgəsinin dağılmasından sonra 1995-ci ildə Vyetnam, 1997-ci ildə Laos və Myanma, 1999-cu ildə isə Kamboca dövləti qoşulur.[1] ASEAN yarandığı gündən üzv dövlətlər arasında sosial, iqtisadi, mədəni əlaqələrin yaranması və inkişafı, azad ticarət və böyük dövlətlərin iqtisadi müdaxilələrindən birgə qorunmaq, regionda sülhü, sabitliyi təmin etmək kimi mühüm vəzifələrin icrasına başlamışdır. ASEAN-ın idarəetmə strukturu - üç ildə bir dəfə rəsmi, ildə bir dəfə qeyri-rəsmi şəkildə dövlət başçılarının toplantısından (ali qərarverici orqan), hər dəfə bir ölkədə keçirilən xarici işlər nazirlərinin illik yığıncağından və yığıncaqlararası ildə bir neçə dəfə sahə nazirləri və idarələrinin (iqtisadiyyat, maliyyə, gömrük, enerji, nəqliyyat, kənd təsərrüfatı və ekologiya, turizm, əmək, miqrasiya, sosial təminat, təhsil və informasiya) mütəmadi keçirilən toplantısından ibarətdir. Hər bir üzv dövlətdə ASEAN-ın milli katibliyi mövcuddur ki, bu orqan qəbul olunmuş ümumi qərarların icrasına nəzarət edir. Milli katibliklərin rəhbərləri, ASEAN-ın baş katibi və hər üzv ölkənin xarici işlər nazirləri - birlikdə təşkilatın Daimi Komissiyasını təşkil edir ki, bu da ölkələrarası cari inteqrasiya proseslərinin planlaşdırılması və koordinasiyası ilə məşğul olur. ASEAN-ın mərkəzi katibliyi İndoneziyanın paytaxtı Cakarta şəhərində yerləşir və dörd əsas sahə bürosundan ibarətdir. ASEAN ilk əvvəl siyasi-iqtisadi təşkilat kimi fəaliyyət göstərsə də, hazırda daha çox regional inteqrasiya funksiyalarını icra edir. [5]

Koordinasiyanın təmin edilməsi və diplomatik münasibətlərin göstərilməsi məqsədilə ASEAN təşkilatının Pekin, Berlin, Brüssel, Kanberra, Cenova, İslamabad,



London, Moskva,Yeni Dehli, Nyu-York, Ottava, Paris, Ər-Riyad, Seul, Tokio, Vaşinqton və Vellinqtonda nümayəndəlik ofisləri var.

1990-cı ildən regionda siyasi, iqtisadi struktur dəyişikliyinə uyğun olaraq ASEAN üzv ölkələri arasında iqtisadi əməkdaşlığı gücləndirmək üçün çalışmış, iqtisadi-ticarət, maliyyə-vergi, tarif, istehsalat kooperasiyası, sosial-əmək resursları, kapital, investisiya, mal, texnologiya, təsərrüfat maraqlarının unifikasiyası və sairə qarşılıqlı fəaliyyət sahələrinin vahid standartlarının yaradılması və icrası ilə məşğul olmuşdur. Xüsusən, 90-cı illərin sonunda Yaponiya və Amerika Birləşmiş Ştatlarının ASEAN-ın region çərçivəsində həyata keçirdiyi inteqrasiya prosesinə qoşulması bu bölgənin dünyanın ən böyük bir dövlətlərarası regional təsərrüfat-iqtisadi kompleksinə çevrilməsinə təkan vermişdir. 1992-ci ildən ASEAN-ın azad ticarət zona olması razılığına gəlirlər. 2003-cü ildə ASEAN Birliyinin 2020-ci ilədək təsis edilməsi açıqlanmışdı. Bu, ASEAN Siyasi-Təhlükəsizlik Birliyi (APSC), ASEAN İqtisadi Birliyi (AEC) və ASEAN İctimai-Mədəni Birliyindən (ASCC) ibarət olmalı idi. 2007-ci ilin əsas hədəfi olaraq, ASEAN Birliyinin işə başlaması və 2015-ci ilədək müxtəlif layihələrin həyata keçirilməsi nəzərdə tutulurdu. [2]

Əhalisinin ümumi sayı 600 milyon nəfər olan ASEAN, gənclərdən ibarət böyük işçi qüvvəsi ilə diqqətçəkici iqtisadi artım təcrübəsini nümayiş etdirmişdir. Nəticədə region bu gün dünyaya açılan inkişaf mərkəzi kimi tanınır. ASEAN-ın regional əməkdaşlıq üçün hərtərəfli mexanizmləri mövcuddur ki, bunlardan 1994-cü ildə yaradılmış ASEAN reginal forumunu (ARF), 1997-ci ildə yaradılmış ASEAN+3, 2005-ci ildə keçirilmiş Şərqi Asiya Sammitini (EAS), 2014-cü ilin noyabrında baş tutmuş ASEAN müdafiə nazirlərinin görüşünü (ADMM-Plus) misal göstərmək olar. Onların arasında Şərqi Asiya Sammiti regional məsələlərdə dialoq və birgə əməkdaşlıq üçün strateji cəhətdən mühüm forumlardan biri olmuşdur.

Regionda sülh, təhlükəsizlik, stabilliyin qorunması üçün Yaponiya və ASEAN qarşılıqlı əməkdaşlıq çərçivəsində nəinki regional, həmçinin qlobal maraqlara xidmət edən müvafiq səviyyədə səmərəli yolla birgə fəaliyyət göstərmişlər. ASEAN-Yaponiya fəaliyyət planı ASEAN-Yaponiya əlaqələrinin inkişafında yol xəritəsi kimi xidmət edir. Bu plan XXI əsrdə davamlı və hərtərəfli tərəfdaşlığın inkişafı üçün hər iki tərəfin öhdəliyini əks etdirir. ASEAN və Yaponiya ASEAN-Yaponiya fəaliyyət planı çərçivəsində müxtəlif tədbirlərin həyata keçirilməsində səylər göstərmiş, eyni zamanda hər iki tərəf ADMM-Plus, ARF funksional əməkdaşlıq vasitəsilə regionda təhlükəsizliyin qorunmasına, qarşılıqlı etimadın möhkəmlənməsinə çalışmışdır.

Yaponiya ASEAN arasındakı tarixi və köklü əlaqələr 1973-cü ildə keçirilmiş Sintetik Kauçuk Forumu ilə qeyd olunur. 1977-ci ildə Yaponiyanın o vaxtkı baş naziri Takeo Fukuda Malaziyanın paytaxtı Kuala Lumpurda keçirilmiş Yaponiya-ASEAN liderlərinin zirvə görüşündə iştirak etmişdir. Bu, ASEAN liderləri və üzv olmayan ölkələr arasında keçirilən birinci zirvə görüşü idi. Filippində növbəti görüşündə Fukuda Cənub-Şərqi Asiya regionuna münasibətdə "Fukuda doktrinası" adlanan yeni yapon xarici siyasət doktrinasını təklif etdi. Həmin dövrdə Yapon dövlətinin ASEAN ölkələri üçün diplomatik prinsipləri bunlardan ibarət idi:

1.Yaponiya təhlükəsizliyin təmin olunmasında hərbi gücün rolunu inkar edir. (Yaponiya konstitusiyasının 9-cu maddəsinə görə Yaponiya müharibə elan etməkdən və ya silahlı qüvvələrini beynəlxalq münaqişələrdə istifadə etməkdən imtina edir.) 2.Yaponiya qarşılıqlı əlaqələri möhkəmləndirmək və qarşılıqlı etimada və hörmətə əsaslanan münasibətlər üçün əlindən gələni edəcək. 3.Yaponiya ASEAN ölkələri ilə birgə tərəfdaş olacaq. [3]

1978-ci ildə Yaponiyanın ASEAN ölkələrinin xarici işlər nazirləri arasında ASEAN-la ilk dialoq tərəfdaşı kimi birgə əlaqələrə başlayan görüşü keçirilmişdi. O vaxtdan bəri 40 ildən çoxdur ki, iki tərəf arasında Asiya-Sakit okean regionunda sülh, stabillik, inkişaf və çiçəklənməyə yol açan yaxın əməkdaşlıq əlaqələri qurulmuşdu. Bu güclü tərəfdaşlıq sayəsində hər iki tərəfin dostluq və əməkdaşlığının daim güclənəcəyi vurğulanmışdır. 1981-ci ilin may ayında ASEAN-a yardım mərkəzinin yaradılması haqqında sazişə əsasən ASEAN-Yaponiya Mərkəzi yaradılmışdır. Tokioda yerləşən mərkəz Yaponiyanın və ASEAN-a üzv dövlətlərin iqtisadi inkişafında ixracın artımına, investisiya axınına, ticarət və turizmin inkişafına dəstək verməkdə mühüm rol oynamışdır.

2013-cü ildə Yaponiya-ASEAN əlaqələrinin 40-cı ildönümü ilə bağlı dövlət və hökumət başçılarının sammiti Yaponiyanın paytaxtı Tokioda keçirilmişdi. Sammitdə Yaponiyanın baş naziri Şinzo Abe qarşıdan gələn 5 il ərzində ASEAN ölkələrinə 2 trilyon yen (19,5 milyard ABŞ dolları) vəsait ayıracaqlarını bildirir. Baş nazir həmçinin Yaponiya-ASEAN diplomatiyasının 5 əsas prinsipindən bəhs edir:

1. ASEAN-a üzv ölkələrlə azadlıq, demokratiya, insan hüquqları kimi ümumi dəyərləri qorumaq və təşviq etmək.

2. Asiya-Sakit okean regionunda tarazlığın təmin edilməsi məqsədilə ASEAN-a üzv dövlətlərlə beynəlxalq qanunvericilik əsasında, açıq dəniz vasitəsilə əməkdaşlığı gücləndirmək.

3. Yapon iqtisadiyyatının canlanması, həm Yaponiya, həm ASEAN-a üzv dövlətlərin çiçəklənməsi üçün müxtəlif iqtisadi tərəfdaşlıq şəbəkələri vasitəsilə əmtəə, kapital, ixtisaslı kadr, xidmətlər də daxil olmaqla ticarət və investisiya axınını inkişaf etdirmək, yoxsulluğun aradan qaldırılmasına kömək göstərmək.

4. Asiyanın müxtəlif mədəni irsini öyrənmək və qorumaq.

5. Gənc mütəxəssislər arasında qarşılıqlı anlaşmaya daha yaxından kömək edən mübadilə məsələlərini genişləndirmək.

2014-cü ildə keçirilmiş sammitdə milli liderlər Yaponiya-ASEAN əlaqələri kontekstində 2013-cü ilin əsas nailiyyətini qeyd etmiş, regional və qlobal məsələlərə ümumi münasibət, fikir bildirmiş, sammitin iclasında əməkdaşlıq konsepsiyasının 4 əsas prinsipi (sülh və stabillik haqqında əməkdaşlıq, inkişaf, çiçəklənməyə dair əməkdaşlıq, yaşayış, həyat keyfiyyətinin yaxşılaşdırılması istiqamətində əməkdaşlıq, ürəkdən-ürəyə əməkdaşlıq) də diqqət mərkəzində olmuşdur.[4] Yaponiya-ASEAN əlaqələrinin inkişafına yönəlmiş hər iki tərəfin maraqlarına uyğun bir sıra mühüm layihələri, sazişləri özündə ehtiva edən əməkdaşlığın əsas inkişaf istiqamətlərini nəzərdən keçirək.

1. Sülh və təhlükəsizliyin qorunması üzrə əməkdaşlıq

Yaponiya regional dəniz və uçuş azadlığı və təhlükəsizliyini təmin etməklə hava və dəniz yolu əlaqələri üzrə əməkdaşlığı gücləndirir. Sakit okean bildiyimiz kimi, region üçün ümumi, müştərək xüsusiyyətlərə malikdir. Cənub Şərqi Asiya Asiya iqtisadiyyatı üçün regionda son dərəcə mühüm dəniz yoluna malik geo-iqtisadi məkandır. Bu da onun regionda əhəmiyyətini artırır.

2014-cü ildə keçirilən Şanqri-La Dialaqunda Yaponiyanın baş naziri Şinzo Abe dənizə dair beynəlxalq hüquq normalarının 3 əsas müddəasını dəstəkləmişdir: dövlətlər beynəlxalq hüquqa əsaslanan tələbləri yerinə yetirməlidirlər, mübahisəli məsələləri sülh yolu ilə həll etməyə və öz tələblərini qorumaq üçün silah və ya güc istifadə etməməlidirlər. O, hüquq qaydaları ilə idarə olunan dəniz qanunlarının təsdiqlənməsi, bu sahədə dövlətlərarası əməkdaşlığın gücləndirilməsi zəruriliyini də vurğulamışdır. Patrul gəmilərinin, rabitə, gəmiçilik avadanlıqlarının təhlükəsizliyinə, insan resurslarının inkişafına dəstək olmaqla, Yaponiya ASEAN-a üzv ölkələrin təhlükəsizlik rejiminin təmin olunmasına kömək edir. 2014-cü ilin noyabrında Yaponiya ASEAN zirvə toplantısında növbəti 3 ildə bu sahədə peşəkar mütəxəssislərin hazırlanmasına dəstək olaraq 700 nəfərin peşəkarlıq səviyyəsinin təkmilləşdirilməsinə maliyyə vəsaiti ayırır.

Hava nəqliyyatı sahəsində əməkdaşlıq Yaponiya-ASEAN arasında regional hava xidmətinə dair razılaşmaya əsaslanır. Yaponiya-ASEAN nəqliyyat nazirlərinin görüşü çərçivəsində regional aviasiya xidmətinə dair müqavilə 2014-cü ilin oktyabrında Yaponiya-ASEAN işçi qrupunun birinci görüşündə bağlanmışdı.

Narkotik vasitələrin qeyri-qanuni ticarəti, insan alveri, terrorçuluq və zorakı ekstremizm kimi transmilli problemlərə, cinayətlərə qarşı mübarizə aparmaq Yaponiya və ASEAN üçün ümumi vəzifələrdən biridir. Hər iki tərəf bu sahədə dövlət səviyyəsində dialoq vasitəsilə, məsələn, ASEAN+Yaponiya nazirlərin transmilli cinayətlərə dair iclasında (AMMTC+Japon) bu sahədə əməkdaşlığa dair təşəbbüslərlə çıxış etmişlər, terrorizmə qarşı mübarizəyə dair ümumi fikirlərini web səhifələrində paylaşmışlar. 2014-cü ilin noyabrında terrorizm və transmilli cinayətlərə qarşı birgə mübarizəyə dair əməkdaşlıq Yaponiya-ASEAN zirvə toplantısında ASEAN-Yaponiya birgə bəyannaməsi ilə qəbul olunmuşdur.

2. Çiçəklənmə naminə regional əməkdaşlıq

ASEAN-Yaponiya dostluq və əməkdaşlıq konsepsiyasının ikinci prinsipi çiçəklənmə, inkişafa dair əməkdaşlığa əsasən Yaponiya regionda ASEAN ölkələri ilə birgə iqtisadi tərəfdaşlığı təşviq edir:

- Yaponiya ASEAN-la regional iqtisadi inkişaf əlaqələrini genişləndirməklə inteqrasiya və təşkilatın qurulma prosesinə, eləcə də daha dərin sosial mədəni anlaşma və insan resurslarının, ticarət, investisiya, kənd təsərrüfatı, kiçik və orta müəssisələrin inkişafına dəstək olmaq, turizm, mədəniyyətə dair proqram və layihələrinin həyata keçirilməsi ilə Yaponiya və ASEAN–a mənfəət gətirmək.
- ASEAN ölkələri ilə əlaqələrin möhkəmləndirilməsi və strateji inkişaf planının həyata keçirilməsi istiqamətində Yaponiya və ASEAN arasında regional əlaqələri gücləndirmək.
- ASEAN ölkələrinin inkişaf balansı üçün mühüm olan regionun inkişaf fərqini azaltmaq, regionun rəqabət qabiliyyətini gücləndirmək.
- Yaponiya ASEAN ölkələrində dövlət-özəl sektorun davamlı inkişafı, fiziki infrastrukturun təkmilləşdirilməsi istiqamətində texniki yardım göstərməklə əməkdaşlığı genişləndirmək niyyətindədir.

Yaponiya-ASEAN arasında ticarət və investisiyanın daha çox irəliləyişi hər iki tərəfin iqtisadi inkişafı üçün əhəmiyyətli hesab edilmiş, dekabrın 1-i, 2008-ci ildə ASEAN-Yaponiya hərtərəfli iqtisadi əməkdaşlıq (AJCEP-ASEAN-Japan Comprehensive Economic Partnership) müqaviləsi qüvvəyə minmişdi. 2013-cü ildə hər iki tərəfin AJCEP-nin xidmət və investisiya fəslində göstərildiyi kimi danışıqların davamlı aparılması təsdiqlənmişdi. Yaponiya həmçinin AJCEP sazişinə əsasən iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün ASEAN-ı 5,8 milyon dollar pul vəsaiti ilə təmin edir. AJCEP sazişinə görə ASEAN və Yaponiya arasında iqtisadi əlaqələrin daha da güclənməsi, 2015-ci ilə qədər bu bölgədə daha geniş imkanlara malik məhsuldar bir bazarın yaradılması nəzərdə tutulmuşdu. Yaponiya ASEAN-a üzv ölkələrlə ASEAN-nın FTA tərəfdaşları (Avstraliya, Çin, Hindistan, Yaponiya, Yeni Zellandiya və Koreya Respublikası) arasındakı danışıqlarda fəal iştirak etmişdir.

Yaponiya 2009–cu ildən başlayaraq hər il Mekonq çayı hövzəsi regionu ölkələri ilə (Kamboca, Laos, Myanma, Tailand və Vyetnam) sammit və nazirlərin iclasını keçirir. Yaponiya həmçinin üç miqyasda bu ölkələrin inkişafına dəstək verir: Mekonq ölkələri ilə

əlaqələri gücləndirmək, birlikdə inkişaf etmək, insan təhlükəsizliyini, ekoloji davamlılığı təmin etmək.

3. Həyat keyfiyyətinin yaxşılaşdırılması üzrə əməkdaşlıq

ASEAN təbii fəlakətlərə meyilli region kimi təbii fəlakətlərin öhdəsindən gəlinməsi və ona qarşı hazırlıq tədbirlərinin görülməsi sahəsində inkişaf etmiş texnologiyaya, elmə malik Yaponiya dövləti ilə əməkdaşlığa can atır. ASEAN-Yaponiya dostluq və əməkdaşlığa dair konsepsiyanın üçüncü prinsipi həyat keyfiyyətinin yaxşılaşdırılması istiqamətində olan əməkdaşlığa uyğun olaraq, Yaponiya ASEAN ölkələri iqtisadiyyatının davamlı inkişafı dövründə ortaya çıxan iqlim dəyişkənliyi və ətraf mühit kimi qlobal məsələlərə dair birgə fəaliyyət təşəbbüsü ilə çıxış edir. Yaponiya ASEAN-a üzv ölkələrdə təbii fəlakətlə bağlı görülən işlərin keyfiyyətinin artırılması məqsədilə komitə yaradır. 2014-cü ildə insan resurslarının inkişafına dəstək olaraq 1000 nəfərin təlimini öz öhdəsinə götürür, hər beş ildən bir 300 milyon dollar dəyərində bir sıra yardım göstərmək təklifi ilə çıxış edir. Bu köməyə daxildir: fəlakətin aradan qaldırılması üçün humanitar yardım üzrə ASEAN Koordinoloji Mərkəzinə (AHA Center) dəstək, xüsusilə köməyin təcili çatdırılma sis temini gücləndirmək, İCT sistemini təkmilləşdirmək, humanitar yardım və fəlakətin aradan qaldırılması üçün səylərin artırılmasına, yüksək keyfiyyətli infrastrukturun qurulmasına dəstək.

ASEAN ölkələrinin sürətli iqtisadi inkişafı ekologiyanın çirklənməsi kimi bir sıra problemlərə səbəb olmuşdur. Böyük enerji istehlakı müqabilində atmosferə atılan zəhərli qazların, tullantıların artması, meşələrin dağıdılması, havanın, su hövzələrinin çirklənməsi, torpaqların deqredasiyası və s. yaşayış üçün yararsız boş sahələrin artmasına səbəb olmuşdur. Cənub-Şərqi Asiya ərazisində bütün şəkər, tapioka və palma yağı istehsal edən zavodlar həyati təhlükəli tullantıları çay və dənizlərə axıdır. Xüsusilə Manila şəhərində milyonlarla insana içməli su verən çaylar təhlükə altındadır. [9]

Yaponiya ekologiya-şəhərsalma proqramının ASEAN modelinin (ASEAN Model Environmental City Proqram) və onun Asiya tədqiqat şəbəkəsinin (Low Carbon Asia Research Network - Lo CAR Net) atmosferə atılan karbon qazı tullantılarının qarşısının alınması istiqamətində həyata keçirdiyi irihəcmli layihələrin icrasının təmin olunmasında, regionda sağlam cəmiyyətin formalaşmasında, ətraf mühitin mühafizəsinə dair məsələlərin həllində öz dəstəyini göstərir.

Son illərdə sənayeləşmiş ölkələrdə geniş yayılmış piylənmə kimi həyat tərzi xəstəliklərinin birinci yerdə durması danılmaz faktlardandır. ASEAN ölkələri də bu gün bu qəbil xəstəliklərin artması problemləri ilə üzləşməkdədir. Yaponiya ASEAN ölkələrində Ümumdünya Səhiyyə Xidmətinin (UHC) son yeniliklərini, nailiyyətlərini tətbiq etməyə çalışır. Buna görə də Yaponiya-ASEAN sağlamlığa dair birgə əməkdaşlıq təşəbbüsü ilə regionda əhalinin sağlamlığının qorunması, sağlam həyat tərzinin təbliği, xəstəliklərin profilaktikası, tibbi xidmətin təkmilləşdirilməsi məqsədini güdür. Yaponiya 2015-ci ildən başlayaraq, mütəmadi olaraq 8000 nəfərdən ibarət peşəkar həkim heyətinin xüsusi kurs keçməsinə yaxından kömək edir. Bu sahədə yapon səhiyyəsinin inkişaf təcrübəsindən, başqa ölkələrin ən qabaqcıl nailiyyətlərindən bəhrələnmək Yaponiya–ASEAN dialoqunun ümdə məsələlərindəndir.

Regionun mühüm problemlərinin həllinə kömək məqsədilə 2006-cı ildə Yaponiya-ASEAN İnteqrasiya fondu yaradılmışdı (JAİF). Yaponiya Yaponiya-ASEAN birliyinin yaranması və 2015-ci ilə qədər güclənməsi, ASEAN-ın səylərinin artmasına kömək üçün 7,5 milyon yen, əlavə olaraq gənc mütəxəssislərin mübadilə prosesinin genişləndirilməsi, müasir tələblərə cavab verən kadrlara ehtiyacın ödənilməsi, Yaponiya və ASEAN arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi, iqtisadi yardımın ayrılması, təbii fəlakətlərin qarşısının alınması və digər təşəbbüsləri həyata keçirmək üçün fondu 53, 9 milyon yen pul vəsaiti ilə təmin edir. Yaponiya-ASEAN inteqrasiyasını, infrastrukturu inkişaf etdimək məqsədilə əlaqələri genişləndirmək, regionda yoxsulluğu, inkişaf fərqini azaltmaq, səhiyyə imkanlarını və başqa həyat standartlarını yaxşılaşdırmaq, və regionda davamlı səylərin artırılması istiqamətində görülən işlərin miqyasını artırmaq üçün Yaponiya fondu 2014-cü ilin martında 100 milyon ABŞ dolları dəyərində məbləğlə təmin etdi.

4. Ürəkdən-ürəyə əməkdaşlıq

Asiya ölkələrinin bir-birilərinə qarşılıqlı hörmət və ehtiramı, bir-birilərinin mədəniyyətini qəbul etməsi, mədəniyyətlərin qarşılıqlı əlaqəsi, qarşılıqlı təsiri nəticəsində yeni daha geniş mədəniyyətin yaranması ilə regionda böyük canlanma yaratmışdır. Yaponiya 2013-cü ilin dekabrında keçirilən sammitdə Yaponiya-ASEAN mədəni əlaqələrinin inkişafı istiqamətində Asiyada mədəni mübadilə proqramlarını əhatə edən yeni siyasətini açıqlamışdır. Bu siyasət altında Asiya qitəsindən 1000-dən çox incəsənət və mədəniyyət nümayəndələrinin bir-biriləri ilə yaxından ünsiyyət saxlamağa, sıx əlaqələr qurmağa imkan yaradan mübadilə proqramı çərçivəsində tədbirlərin həyata keçirilməsi, bu proqramın 2020-ci ilə qədər reallaşdırılması və daha da genişləndirilməsi nəzərdə tutulurdu.

ASEAN-Yaponiya dostluq və əməkdaşlıq konsepsiyasının dördüncü prinsipi-ürəkdən-ürəyə istiqamətlənən ruhi ümumiliyə, əməkdaşlığa uyğun olaraq, Yaponiya və ASEAN ölkələrinin gələcək liderləri-gəncləri arasında mədəni mübadilə layihələrini Yaponiya-ASEAN dostluğunun mühüm təməli hesab etmək olar. Tələbə və gənclərin Yaponiya-Şərqi Asiya şəbəkəsi çərçivəsindəki (JENESYS-"Japan-East Asia Network of Exchange for Students and Youths") beşillik mübadilə proqramı əsasən 2007-ci ildə Şərqi Asiya Sammitində (EAS) qəbul olunmuş, region ölkələrindən olan 6000

gəncin Yaponiyaya birillik dəvəti ilə həyata keçirilmişdir. Asiyada möhkəm tərəfdaşlıq, dostluq və etimada söykənən sıx, möhkəm əlaqələrin, qarşılıqlı anlaşma və əməkdaşlığın gücləndirilməsi məqsədilə Yaponiya ASEAN ölkələrindən olan daha 13000 nəfərdən çox gənc mütəxəssisi mübadilə layihələrinə cəlb etmişdir.

JENESYS 2.0 isə öz fəaliyyətinə 2013-cü ildən başlamış, ümumi sayı 30000 nəfər olan region ölkələri gənclərinin hərtərəfli inkişafına stimul verən elmi, mədəni mübadiləsini uğurla həyata keçirmişdir. Bugünədək bu layihədə təxminən 10000 nəfərdən çox gənc mütəxəssis iştirak etmişdir.

ASEAN ölkələri yapon turistlərinin ən məşhur səyahət yerlərindən biridir. 2013-cü ildə 4,7 milyon Yaponiya vətəndaşı bu ölkələrin məşhur kurortlarını, abidələrini, attraksionlarını və s.-ni görmək üçün səfər etmişdi. Xüsusilə qeyd etmək lazımdır ki, İndoneziya, Tailand və Vyetnamda yapon dilinə maraq daha çoxdur. Yaponiyada təhsil almaq istəyən region ölkələri tələbələrinin, Yaponiyaya səfər edən turistlərin sayı da durmadan artmaqdadır. Statistik məlumatlara görə 2013-cü ildə onların sayı bir milyonu keçmişdir. YUNESKO-nun ümumdünya irsi siyahısına düşmüş qədim, tarixi məbədləri də turistlərin ən çox səfər etmək istədikləri məkanlardandır. Bu sahədə ASEAN vətəndaşlarının viza tələbləri də qismən yüngülləşdirilmişdir.

XXI əsrdə də manqa əsasında hazırlanmış animasiyalar, j-pop musiqisi ASEAN-a üzv ölkələrin xalqları arasında xüsusilə məşhurdur. Manga və anime sənəti XX əsrdə Yapon mədəniyyətinin ən məşhur nailiyyətlərindən hesab edilirdi. [8, 163] J-pop musiqisi İkinci Dünya müharibəsindən sonra Amerika və Avropa ölkələri musiqisinin təsiri altında inkişaf etmiş, 1990-cı illərdə j-pop və ya Yaponiya populyar musiqisi adlı yeni musiqi janrı formalaşmışdır.[7]

Yaponiya elektronika, prosessorların və kompüterlərin istehsalı, informasiya-kommunikasiya texnologiyaları, mexanizm, tibbi avadanlıqlar, elmi tədqiqatlar sahəsində lider ölkələrdən biridir. Regionda ən böyük resurs olan insan resurslarının inkişafı ASEAN ölkələrinin davamlı inkişafı üçün mühüm amillərdəndir. 2001-ci ildə Yaponiya ASEAN-da mühəndisliyə dair bilik və bacarıqların inkişaf etdirilməsi planına uyğun olaraq SEED-NET layihəsini hazırlamışdı. Proqram 900 nəfər müəllim heyətinin magistr, doktor dərəcələrini əldə etməsinə, yüksək ixtisaslı kadrların hazırlanmasına 700 birgə tədqiqat layihəsinin həyata keçirilməsinə, 1000 elmi məqalənin, tədqiqat işinin təqdimatına dəstək vermişdir. Bu proqrama Yaponiya və ASEAN ölkələrinin 600 nəfər universitet tələbələri də daxildir.

Elm və texnologiya üzrə hər il keçirilən ASEAN Qida Konfransı (AFC) Yaponiya mütəxəssislərinin iştirakı ilə davam edən konfranslardan biridir. Yaponiya mütəxəssislərinin iştirakı Yaponiya-ASEAN İnteqrasiya Fondu (JAIF) tərəfindən dəstəklənir.

1990-2015-ci illərdə ASEAN ölkələrində yüzilliyin inkişaf hədəflərinin reallaşdırılması istiqamətində demək olar ki, əhəmiyyətli nailiyyətlər əldə olunmuşdur. 8 avqust 2017-ci ildə ASEAN təşkilatının yaranmasının 50 illik yubileyinə həsr olunmuş tədbirdə ASEAN-a üzv ölkələr bir araya gələrək müəyyən məsələlərlə bağlı müzakirələr aparmış, yüzilliyin inkişaf hədəfləri, məqsədləri istiqamətində 23 problemin həllindən 13-nün reallaşması, üçünün isə hədəfə yaxınlaşmasını və regionda növbəti hədəflərə çatmaq üçün hələ də müəyyən problemlərin olduğunu xüsusi vurğulamışlar. Bölgədə əhalinin yoxsulluğunun aradan qaldırılması istiqamətində məqsədyönlü fəaliyyət başa çatmışdır. ASEAN ölkələrində yaşayan əhalinin payına düşən yoxsulluq həddi (milli və beynəlxalq göstəricilərə əsasən) yarım dəfəyə qədər azaldılmışdı. Azçəkili və anadangəlmə müxtəlif qüsurlu körpələrin dünyaya gəlməsi minimuma endirildi. Bölgənin beynəlxalq ibtidai təhsil sisteminə keçməsində əldə etdiyi nailiyyətlər də diqqətəlayiqdir. ASEAN-a üzv ölkələrin savadlılıq səviyyəsi artmış, ibtidai təhsil sistemi son dərəcə təkmilləşdirilmişdir. Kamboca, Laos, Myanma və Vyetnamda bu göstəricilərə görə əldə olunan nailiyyətlər ASEAN-6 (Bruney Dərussalam, Indoneziya, Malayziya, Filippin, Sinqapur və Tailand) ölkələri ilə bərabərdir. Təhsildə gender bərabərliyinin təşviq edilməsi məqsədləri əsas, orta və yüksək səviyyədə təmin edilmişdir. Təəssüf ki, siyasi sektora nəzər salındıqda 2015-ci ilin göstəricilərinə əsasən ali məclisdəki yerlərdə qadınların payı yalnız 18% -dir, bu da hədəfdə nəzərdə tutulan məqsədə nisbətən yarıdan azdır. [6]

ASEAN bu gün bölgədə uşaq ölümünü azaltmağa nail olmuşdur. ASEAN-6 (Bruney Dərussalam, İndoneziya, Malayziya, Filippin, Sinqapur və Tailand) və CLMV (Kamboca, Laos, Myanma və Vyetnam) ölkələrində körpələrin və yaşı 5 yaşdan aşağı uşaqların ölüm hallarının 2/3 nisbətində azalması qarşıya qoyulan problemlərin həlli istiqamətində ən böyük uğurlardandır. Ana ölümü problemi hər iki ASEAN-6 və CLMV ölkələrində hələ də qalmaqdadır. Doğum faizinin artmasında təcrübəli sağlamlıq işçilərinin uğurlu nailiyyətlərinə baxmayaraq, bu sahədəki vəziyyəti daha da yaxşılaşdırmaq üçün böyük səylərin artırılması zəruriliyi qeyd olunmuşdur. Regionda yalnız 1 yaşlı uşaqların 14%-nin qızılcaya qarşı 2015-ci ildə peyvənd olunmadığı dəqiqləşdirilmişdir. ASEAN həmçinin malyariya xəstəliyi ilə əlaqədar ölüm hallarının azalmasına nail olmuşdur. Bu sahədə irəliləyiş xüsusilə ASEAN-6 ilə CLMV ölkələrində də müşahidə olunmaqdadır. Lakin HBV, AİDS, vərəm xəstəliklərinin azalmasında irəliləyiş təqdirəlayiq olsa da, bu proses tədricən baş vermişdir. Ətraf mühitin inkişaf davamlılığını təmin edilməsində ASEAN ölkələri həmçinin böyük nailiyyətlər əldə etmişdir. Əhalinin təbii artımı ilə əlaqədar meşə torpaq sahələrinin azalmasının tədricən qarşısı alınmaqdadır. Eyni zamanda ASEAN-6 və CLMV ölkələrində əhalinin içməli su

mənbələrindən və sanitar cəhətdən təkmilləşdirilmiş içməli su qurğularından istifadəsi təmin edilmişdir.

ASEAN yüzilliyin inkişaf hədəflərini, məqsədlərini yerinə yetirərkən, 1990-2015-ci illərdə bəzi çətinliklərlə qarşılaşsa da, bu istiqamətdə böyük səylər davam edir. ASEAN ölkələri arasında inkişaf fərqinin azalmasında, bu ölkələrin iqtisadi, mədəni inkişafında Yaponiya kimi iqtisadi cəhətdən inkişaf etmiş dövlətin rolu böyükdür. ASEAN ölkələrində artımın yavaş və ya qeyri-kafi olduğu sahələrdə inkişafı sürətləndirmək məqsədilə Yaponiya beynəlxalq sazişlərə uyğun olaraq maliyyə və texniki yardımlar ayırır.

**Ədəbiyyat:**

1. http://www.mofa.go.jp/region/asia-paci/asean/index.html

2.http://www.asean.emb-japan.go.jp/files/000223495.pdf

3.http://www.businesstimes.com.sg/hub/asean-japan-special/asean-japan-relations-past-and-present

4. http://www.aseanstats.org/wp-ontent/uplo-ads/2017/08/ASEAN_MDG_

5. http://sesqazeti.az/news/kivdf/336885.html

6. https://www.asean 2017.ph/asean-50/

7. Campion, Chris (August 22, 2005). "J-Pop History". The Observer (London)

8 «Страна Восходящего Солнца. История и культура Японии». Гаджиева Е.А. «Феникс» Ростов-на-Дону, 2006, səh.163

9.“Япония-АСЕАН: эволюция официальной помощи развитию” Пространственная Экономика 2014. №2.səh. 40—74

**Afag Narimanova**

**Main directions of Japan and ASEAN cooperation in the 21st century**

**Summary**

This article explores main directions of Japan and ASEAN cooperation in the 21st century. Japan and ASEAN cooperate through multilateral collaborative frameworks in order to maintain peace, security and stability in the region, which serves not only regional, but also global interests. ASEAN has become the second largest trade partner of Japan, after China. Japan is the second largest investor for ASEAN after the EU. Japanese companies operate in more than 8000 locations in the region.